# Şagirdlərin peşə seçimi necə aparılır?



Təhsilalanların peşə seçimi çox vacib məsələdir. Bu mənada insanın bütün gələcək həyatı peşə seçiminin düzgün aparılmasından asılıdır. Peşəyönümü problemi hər bir ölkə üçün aktualdır. Xaricdə bu məsələni necə həll edirlər? Peşələrə yiyələnməkdə uşaqlara kimlər kömək edir?

ABŞ-da peşəyönümünün əsas xüsusiyyəti odur ki, işəgötürənlər özləri məktəblərə gəlirlər. Amerikada peşəyönümü sisteminin əsasında peşə xüsusiyyətləri ilə insan xarakterinin müqayisəsi modeli durur. Bu xüsusiyyətlər ekspertlər tərəfindən məktəbəqədər yaşlı uşaqlardan tutmuş ali məktəblərin məzunlarına qədər müxtəlif yaşlı uşaq və gənclər üçün nəzərdə tutulmuş testlər əsasında aşkara çıxarılır. Testlər uşaqların bilik səviyyəsini və geniş profilli istiqamətlərə marağını qiymətləndirməyə kömək edir. Daha sonra məktəblilər uyğun peşələrin siyahısını əldə edir və onlardan birini seçə bilər. Yuxarı siniflərdə isə layihə, istehsal, texnoloji və tədqiqat, idarəetmə fəaliyyəti sahəsində bacarıqların formalaşdırılması istiqamətində ikiillik proqram fəaliyyət göstərir. Kompüter texnikası, nəşriyyat işi, təsviri sənət, xarici dilləri öyrənməyə imkan verən əlavə dərslər də var.

Proqram çərçivəsində peşəyönümü sahəsində ixtisaslaşmış kompaniyalar iş yerləri təklif edirlər, bu isə peşələri təcrübədə sınaqdan keçirməyə ("test-drayv") imkan verir. Yeniyetmələr üçün tədris-istehsalat bazaları mövcuddur ki, burada onlar müxtəlif istiqamətlərdə özlərini sınaqdan keçirə bilərlər. Bundan başqa, uşaqlar peşələrin reytinqini izləyə, potensial işəgötürənlər ilə hər ay məktəblərdə keçirilən görüşlərdə iştirak edə bilərlər.

Avropa ölkələrinin əksəriyyətində isə karyeranın planlaşdırılması ilə ibtidai məktəblərdən məşğul olurlar. Burada, məsələn, azyaşlılar üçün iş axtarış texnologiyaları üzrə məşğələlər və karyera inkişafı sahəsində mühazirələr mövcuddur. Uşaqlara peşə dünyasına müstəqil surətdə nüfuz etmək və əmək bazarındakı vəziyyətdən asılı olaraq özünü qiymətləndirmək bacarıqları öyrədirlər.

Böyük Britaniya, Almaniya və Fransanın məktəblərində yeniyetmələr üçün karyera və psixoloji məsləhətlər keçirən xüsusi karyera büroları mövcuddur. Riyaziyyat, təbiət elmləri, menecment, incəsənət və mədəniyyət üzrə peşəyönümlü proqramlar var. Proqramlara nəzəri və praktiki dərslər, işgüzar oyunlar, təlimlər və uğurlu iş adamları ilə görüşlər daxildir. Bu, şagirdlərə savadlı xülasələr tərtib etməyi və peşələrə dair xüsusi verilənlər bazasından istifadə etməyi öyrənməyə imkan verir.

Böyük Britaniyada yuxarı sinif şagirdlərinə və tələbələrə əmək bazarının vəziyyəti və iş şəraiti haqqında danışılır, eləcə də onlar üçün tələb olunan ixtisasların siyahısı təşkil edilir.

Skandinaviyanın bəzi ölkələrində isə peşəyönümü məsələsi digər Avropa ölkələrindən bir qədər fərqlənir. Məsələn, fin məktəblərində peşəyönümü istiqamətinə həsr olunmuş xüsusi dərslər keçilir. Onlar VII sinifdən başlayır və icbari praktik məşğələləri nəzərdə tutur, şagirdlər burada seçilmiş ixtisaslar üzrə öz qabiliyyətlərini sınaya bilərlər. VIII sinifdə uşaqlar karyera qurmaq məsələlərini öyrənməyə başlayır və bir ildən sonra isə müxtəlif şirkətlərin kadr xidmətlərinin mütəxəssisləri ilə görüşə bilərlər. Əgər məktəbli IX sinfin sonunda gələcək peşə ilə bağlı seçim edə bilmirsə, o, karyera məsləhətçisindən yardım alır.